# Söz – ün şairləri

*Artıq bir neçə ildir ki, "Söz" ədəbi layihəsi fəaliyyət göstərir. Layihənin rəhbəri tanınmış şairə Nigar Həsənzadədir. "Söz" ədəbi layihəsi ardıcıl olaraq bir-birindən maraqlı işlər həyata keçirir. "Söz" ədəbi layihəsinin müxtəlif tədbirlərinə qatılan müstəqil ədəbi qrup olan dəyərli gənc şairlər artıq cəmiyyət tərəfindən "Söz"ün şairləri" kimi qəbul edilir. "Söz"ün şairlərindən bir neçəsinin yaradıcılıq nümunələrini təqdim edirik:*

## Günel Şamilqızı

Mənim qayıqlarım başqa cür idi
Sulardan səmaya yuvarlanmışdı.
Mənim qayıqlarım qəbir kimiydi
Üstə ot bitmişdi, mamırlamışdı.

Mənim qayıqlarım qayıq deyildi,
Suyu suç, Ayı ac, özü göl dəniz.
Mənim qayıqlarım özünnən küsən
Mənim qayıqlarım yadlara əziz.

Külək lal olmuşdu, dəniz kar idi,
Mənim qayıqlarım günahkar idi.
Mənim qayıqlarım sənə gəlmirdi
Mənim qayıqlarım bata bilmirdi...

* * *

Salam, özüm, necəsən?
Xatirələrin necədi?
Papağın, əlcəklərin,
düymələrin necədi?

Hayandadı əsl Ay?
Görsən, bizdən salam de.
Kənddən gəlib-gedən yox,
ulduzsuzdu komam de.

Salam de duz gölünə,
dağdakı ilk qəbirə.
Uçuq dayanacağa,
quyulara, tinlərə.

Salam dəyirmanlara,
çuval ağızlarına.
Salam oymaq gəlinə,
yumaq baldızlarına.

Salam nənəm-cənamaz,
Salam atam qapısı,
Salam anam yorğanı,
ev ətri, cəftə pası...

Necədi təsbeh əmi,
Zər kimi cüt qonşular?
Övladdan, nəvədən bol,
Dövlətdən lüt qonşular.

Susub qaz sayğacları
hər gün qəpik güdəcək.
Qışı peşman elədiz,
qara həsrət gedəcək.

Orda səma böyükdü
Doludurmu sinəsi?
Bu qıza pay göndərin,
sevinsin yurd küpəsi...

...Baxdığım filmlərin
ən gözəliydi o kənd.
Kədəri pürrəngi, tünd
Sevinci qənd kimi sərt

Salam, özüm, necəsən?
Günəşi görürsənmi?
Görsən bizdən salam de,
Gedim bitirim filmi.

* * *

Əlin kabusum olub
Ovuc dolu yuxsu var.
Əlin xəyal kimidi
Varsa yoxdu, yoxsa var?

Hərdən mesajım gəlsə
diksinən əllərinə
bir salam borcum vardı,
qarışmadı tərinə.

Bizdən sənə döngədi
bizdən mənə, geriyə.
Tutulmayan, ağlayan
bir əl qalar hərəyə.

Əllərin unudub ki
barmaqların gülərdi.
Axı əlin nə bilir
qanad ola bilərdi...

Bir gecə cildimə girib mürgülə
Gör ki, yuxularım necə qarışır
Gülsəm dodağımdan öpüş yerləri
Ağlasam gözümdən qadınlar daşır.

ul